## 2023 – "Heydər Əliyev İli"



# Milli dəyərlərin misilsiz himayədarı

**Müstəqilliyimizin məhv olma təhlükəsi ilə üz-üzə qaldığı təlatümlü günlərdə ulu öndər Heydər Əliyevin başlatdığı xilaskarlıq missiyası bütün Türk dünyasının qürur duyduğu 44 günlük Vətən müharibəsində tarixi qələbə ilə bir daha şərəfləndi. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda baş vermiş xaos və anarxiya, gündən-günə dərinləşən böhran dövründə xalqın Heydər Əliyevə üz tutması həyatın zərurətə çevirdiyi reallıq idi.**

Cəmiyyət buna qədər də bu dahi şəxsiyyəti Azərbaycanı geridə qalmış aqrar ölkədən qabaqcıl sənaye respublikasına çevirmiş, dünyada tanıtmış yurdsevər və qüdrətli lider kimi tanımışdı. Heydər Əliyev o dövrdə ermənilərin Azərbaycana olan açıq və gizli, əsassız və saxta iddialarının qarşısını qətiyyətlə almışdı. 1990-cı ilin 20 Yanvar faciəsi zamanı isə xalqımızın etiraz səsini bütün dünyaya çatdıran mötəbər şəxs də məhz Heydər Əliyev idi.

Ulu öndər 1990-cı ildə Azərbaycana qayıtdıqdan sonra Naxçıvana rəhbərliyi üzərinə götürdüyü dövrdə qonşu ölkələrlə, o cümlədən, qardaş Türkiyə ilə əlaqələrin qurulmasında böyük səylər göstərmiş, muxtar respublikanı erməni işğalından xilas etmiş, sovet qoşunlarının dinc yolla qədim diyardan çıxarılmasını təmin etmişdi. Təbii ki, müasir Azərbaycan dövlətçiliyinin Heydər Əliyevin adı ilə bağlı olan bu şərəfli səhifələri olduqca zəngindir. İndi o dövrü yaşayan və Heydər Əliyevi görüb, onunla görüşən hər bir azərbaycanlının bu barədə unudulmaz xatirələri var. Bu sırada Naxçıvanda yetərincə tanınan bir nəslin nümayəndəsi olan Natiq Talıbovun xatirələri isə daha məzmunlu və zəngindir.

Natiq Talıbov ixtisasca energetikdir. Azərbaycan Dövlər Neft və Sənaye Universitetini bitirib, ixtiraçı alim kimi tanınıb. Əli Bayramlı (indi Şirvan) Dövlət Elektrik Stansiyasında və Azərenerji ASC-nin Enerji İstehsalı İdarəsində rəhbər vəzifələrdə çalışıb. 1993-cü ildə ulu öndərin təşəbbüsü ilə Naxçıvana qayıdan Natiq Talıbov tikilməkdə olan elektrik stansiyasına baş mühəndis təyin edilib. Natiq Talıbovun atası Kazım Talıblı Heydər Əliyev Naxçıvanda təhsil alarkən onun müəllimlərindən olub. Natiq müəllim deyir:

–Heydər Əliyevin siyasi və ictimai fəaliyyəti Azərbaycanın dövlətçilik tarixinin ən qürurlu səhifələrindəndir. Bu günümüzə işıq salan, gələcəyə istiqamət verən tarixi hadisələrin hər birinin müəllifi ulu öndərimizdir. Azərbaycanın hələ keçən əsrin sonlarından başlanan inkişaf və sənayeləşmə dövrü də Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan İES, Şəmkir SES, Yenikənd SES, Bakı İEM, Şimal ES-də yeni enerji blokunun tikintisi onun təşəbbüsü və iştirakı ilə baş tutmuşdur. Azərbaycanın böyük oğlunun Sov.İKP MK-nın Siyasi Bürosuna üzv seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyinatı bütün ölkənin həyatında yeni dövrün başlanğıcı oldu. Tək Azərbaycanı demirəm, onun Rusiya üçün gördüyü quruculuq işlərinin tarixi bu gün də unudulmayıb.

Nəhayət, bədxahların təşəbbüsü ilə vəzifədən uzaqlaşdırılması, 1990-cı ildə məlum səbəblər ucbatından blokada şəraitində ağır günlərini yaşayan Naxçıvana qayıdışı, əslində Naxçıvanın və Azərbaycanın xilası oldu. Naxçıvanlıların Heydər Əliyevi necə sevgi və coşqu ilə qarşılaması əfsanəvi bir hadisədir. Bu izdihamlı təntənədə bizim ailə üzvlərimiz də yaxından iştirak etmişdir. Yeri gəlmişkən, deyim ki, ailə üzvlərimiz də dəfələrlə onun görüşünə getmiş, müəllimi olmuş Kazım Talıblı haqqında xoş xatirələrini eşidiblər. İndi də bu təəssüratlarını bölüşən qohumlar ulu öndərin yaddaşından, ötübkeçənləri incəliklə xatırlamasından heyranlıqla danışırlar.

**–Olarmı ki, bu barədə bir az ətraflı danışasınız, hər halda yaddaşınızda qalanlar var…**

–Əlbəttə, bunlar heç vaxt yaddan çıxası deyil. İkinci tərəfdən çox qısa bir ömür yaşayan atam Kazım Talıblının dahi bir şəxsiyyətin yadında xoş xatirələrlə qalması bütün nəslimiz üçün şərəfdir. Əli Bayramlı (indi Şirvan) DRES-də işlədiyim vaxtlarda, o vaxt Əli Bayramlı Şəhər Dövlət Təhlükəsizlik İdarəsinin rəisi olan Rzaqulu Quliyev bu barədə mənə dəfələrlə danışmışdı. O deyirdi ki, Kazım müəllim Heydər Əliyevin xoş duyğularla xatırladığı müəllimlərindəndir.

Bir hadisə də uşaqlıq yaddaşımda silinməz izlər buraxıb. Naxçıvan tarixən insanların rahat yaşadığı yer olmayıb. Atamdan gələn qara xəbər, onun müharibədə həlak olması onsuz da sıxıntı içərisində yaşayan ailəmizə yeni problemlər gətirmişdi. O vaxt ikinci çağırış Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizədlər sırasında anam Məsmə Talıbovanın da adı var idi. Bu namizədlik dövlət təhlükəsizlik orqanlarında çalışan məsul bir şəxs tərəfindən verilmişdi. Həmin adam gənc çekist Heydər Əliyev imiş.

Vaxtı ilə ona dərs demiş müəlliminin, Naxçıvanın maarif və mədəniyyətinin inkişafında xidmətlər göstərmiş, Böyük Vətən müharibəsində qəhrəmancasına həlak olmuş Kazım Talıblının həyat yoldaşının namizədliyinin irəli sürülməsi və deputat seçilməsi o ağır illərdə ailə üçün olduqca böyük mənəvi və maddi dəstək idi. İndi uzaq keçmiş olan 1946-cı ildən uşaq yaddaşıma həkk olunan bu hadisə unudulmaz xatirədir. Heydər Əliyev o vaxtdan ailəmizin xeyirxah dostu olub və Talıbovlar nəslinin yaddaşında da nəcib, qədirbilən bir insan kimi qalıb.

İstər o ağır illərdə, istərsə sonralar da biz bu böyük insanın ailəmizə olan köməyini davamlı hiss etdik. Azərbaycan KP MK-nın birinci katibi olarkən Naxçıvan ziyalıları ilə görüşən Heydər Əliyevi Naxçıvan teatrının foyesində, o zamanlar rəhbər işdə çalışan bibim Rübabə qarşılayıb. Maraqlıdır ki, bibimi dərhal tanıyıb və atamı da ehtiramla xatırlayıb. Bu hadisə Naxçıvanda böyük rezonans doğurub.

**–Natiq müəllim, ulu öndərin bu qədər ehtiramla yad etdiyi müəllimi haqqında bir az ətraflı danışın. Yeri gəlmişkən, Kazım Talıblı kim olub?**

–Atam 1907-ci ildə Naxçıvanda doğulub və Bakıda pedaqoji institutda ali təhsil alıb. Eyni zamanda, musiqi texnikumunu da bitirib. Yaxşı tar, kamança və skripka çalmağı da bacarırmış. Naxçıvanda əvvəlcə pedaqoji texnikumun, sonra pedaqoji institutun direktoru olub. Maarif sahəsində çalışdığı bu dövrdə bir çox ziyalının yetişməsində zəhməti olub. Azərbaycanın ictimai-siyasi həyatında böyük xidmətləri olan Səfərəli Babayev, məşhur yazıçı Hüseyn İbrahimov onu ən sevimli müəllimlərindən hesab edirdi. Səfərəli müəllim uzun müddət partiya-sovet orqanlarında çalışan rəhbər işçilərdən olub, Naxçıvanın 1-ci katibi, (onda belə adlanırdı) muxtar respublikanın maarif naziri, Naxçıvan Dövlət Teleradio Komitəsinin rəhbəri olmuşdu, AMEA-nın müxbir üzvü idi.

Hüseyn İbrahimov Azərbaycanın Xalq yazıçısı idi. Hər ikisi ilə çox səmimi münasibətlərim olub, məni sevimli müəllimlərinin övladı kimi qəbul ediblər. Hər ikisi Naxçıvan Pedaqoji Texnikumunda atamın tələbəsi, Heydər Əliyevin tələbə yodaşı olmuşdular. Ulu öndər atamın adını həmişə qürurla çəkib, bu onun övladları üçün böyük fəxarət olub. Atam 1939-cu ildə Naxçıvanın incəsənət komissarı–mədəniyyət naziri olub.

Kazım Talıblı 1942-ci ildə könüllü cəbhəyə gedib, Pribaltika cəbhəsində zabit kimi döyüşüb. 1944-cü ilin 24 sentyabrında Latviya uğrunda gedən döyüşlərdə həlak olub və orada More qəsəbəsindəki qardaşlıq qəbiristanlığında dəfn olunub. Tanınmış hərbi araşdırmaçı və yazıçı Nikolay Kudinov atamın həyat və cəbhə yolunu əks etdirən "Talıbov yüksəkliyi" adlı povest yazıb. Bu əsərdən parçalar 1983-cü ildə Naxçıvanda "Şərq qapısı" qəzetində dərc edilib. "Yazıçı" nəşriyyatında kitab kimi nəşri planlaşdırılmışdı, amma təəssüflər olsun ki, qarma-qarışıqlıq dövrünə düşdü, əsər itdi. Bir neçə dəfə Latviyada olmuşam, atamın qəbrini, onun şərəfinə yaradılan "Talıbov guşəsi"ni ziyarət etmişəm. İndi oralarda nələr yaşanır, bunlara bu gün əlim çatmır.

Amma Naxçıvanın mərkəzi küçələrindən biri atamın adını daşıyır. Texnikumun yanından keçən, vaxtı ilə "Puşkinskaya" adlandırılan bu küçəyə Kazım Talıblının adının verilməsi də ulu öndərin nəcib və xeyirxah təşəbbüsünün, onun müəlliminə və ailəmizə olan ehtiramının töhfəsidir.

**–Natiq müəllim, qohumların Heydər Əliyevlə görüşündən danışdınız, sizin də onunla görüşünüz olubmu?**

–Ulu öndər Naxçıvana gələndə mən Şirvanda (Əli Bayramlı) çalışırdım. Bu insana olan sevgi-rəğbət o qədər böyük idi ki, hər kəs onunla görüşməyi arzulayırdı. Təbii ki, bu hisslər bir naxçıvanlı kimi mənim də ürəyimdən keçirdi. Heydər Əliyevlə görüşməyi, düzünü deyim ki, ürəyim istəsə də onu narahat edib, vaxtını almaqdan çəkinmişdim. Onu da bilirdim ki, işlərinin nə qədər çox olmasına baxmayaraq Heydər Əliyev bizim ailə ilə həmişə maraqlanıb. Amma görüşdüm və bu görüş məni yenidən Naxçıvana qaytardı.

**–Danışın, necə oldu?**

–1992-ci ilin dekabrında Naxçıvanda xəstə olan bir qohumumu ziyarətə getmişdim. Adamlar qıtlıq, çörək böhranı bir yana, soyuğun da əsir-yesiri olmuşdular. Təsəvvür edin ki, canının qızması üçün xəstə belinə "qrelka" bağlasa da, yenə deyirdi ki, donuram… Düzü, bu vəziyyət məni o qədər sarsıtdı ki, əlac üçün Ali Məclisə Heydər Əliyevin qəbuluna gəldim. Köməkçiyə dedim ki, Heydər Əliyevin müəlliminin – Kazım Talıblının oğluyam, deyin, məni qəbul etsin. Cavab belə oldu ki, axşam saat onun yarısı məni gözləyir…

Düzü, vəziyyəti, səngiməyən gərginliyi və işlərinin çoxluğunu nəzərə alaraq 5-10 dəqiqəlik bir görüş olacağını düşündüm. Çox mehriban və səmimi qəbulda söhbət 1 saata yaxın çəkdi. Naxçıvanda energetika sahəsində aparılan işlərdən danışdıq. Onda İrandan elektrik xətti çəkilirdi və Türkiyədən isə planlaşdırılırdı. Ulu öndərin şəxsi nüfuzu ilə baş tutan bu zəruri işləri alqışladım. Atam haqqında elə xoş sözlər söylədi ki, düzü, bu böyük insanın dilindən bunları eşitmək məni hədsiz qürurlandırdı.

Energetika ilə bağlı təkliflərimi eşitdikcə suallar verirdi. Digər tərəfdən, həssaslığı və energetikaya peşəkar münasibəti də məni heyran qoymuşdu. Sonra ayağa durdu və kiməsə zəng etdi: "Kazım Talıblının oğlu yanımdadır. Təcili Müslüm İmanovla (onda Azərenerji ASC-nin sədri) danış, o, bu gündən burada, tikilməkdə olan elektrik stansiyasında işləyəcək". Sonradan bildim ki, Naxçıvan Nazirlər Sovetinin sədr müavini Ələsgər Sadıqova bu barədə tapşırıq verib.

**–Demək Naxçıvana dönüşünüz belə başlandı…**

–Bəli, gözlənilməz bir təsadüf idi. Elektrik stansiyası şəhərdən 8 kilometr aralıda idi. Bir dəfə işin sürətləndirilməsi üçün bəzi problemləri ulu öndərə bildirmək və kömək almaq üçün səhər tezdən Ali Məclisə gəldim. Foyedə məni görən kimi çağırdı və ayaqüstü təkliflərimi dinlədi, çox operativ göstəriş verib məsələnin təcili həllini tapşırdı. Köməkçiyə məni göstərərək dedi: "Tikilməkdə olan elektrik stansiyasının baş mühəndisidir. Nə vaxt gəlsə, qapıda saxlama, burax yanıma gəlsin". Lakin mən sonralar onun qəbuluna getmədim. Əslində, buna ehtiyac da olmadı, davamlı olaraq özü tikintiyə gəlirdi və yerindəcə problemləri həll edirdi…

İndi o günlər mənim həyatımda şərəfli bir tarixdir. Düşünürəm ki, blokada şəraitində yaşayan Naxçıvanın uğurlarına təkcə şahidlik etmədim, həm də ulu öndərin etimadı ilə və bilavasitə rəhbərliyi altında bilik və bacarığımı, peşəkar əməyimin önəmli bir hissəsini həmyerlilərimə xidmətə həsr edə bildim. Bu gün o görüşləri xatırladıqca böyük iftixar və qürur hissləri keçirirəm.

Ümummilli lider Heydər Əliyev dahi insan idi, onun yüksək qiymətini dünyanın ən böyük siyasət adamları, ölkə rəhbərləri, ictimai xadimlər vermişlər. Azərbaycan xalqı bu fenomen yetirməsi ilə hər zaman fəxr edəcək.

**- Maraqlı söhbət üçün sağ olun!**

**Namiq QƏDİMOĞLU,**
**"Xalq qəzeti"**